# ERKİN VAHİDOVUN "RUHLARIN ÜSYANI"ƏSƏRİNİN MƏNƏVİ-PSİXOLOJİ XARAKTERİ

**Atilla Nazim oglu SÜLEYMANLI**
Özbəkistan Respublikası, Termez Dövlət Universitetinin
Ədəbiyyat(Özbək ədəbiyyatşünaslığı) fakültəsinin
II kurs magistri, Bakı,
atillanazim@mail.ru,
ORCİD İD: 0009-0005-7230-5123

**Xülasə**

Özbəkistanın tanınmış şairi və yazıçısı Erkin Vahidovun yaradıcılığı mövzu və məzmun, janr müxtəlifliyi ilə milli ədəbiyyatın, eləcə də türk xalqları ədəbiyyatında dərin iz buraxmış və şöhrət qazanmışdır. Onun "Ruhların üsyanı" əsəri özbək ədəbiyyatının mühüm nümunələrindən biri kimi qəbul edilir və əsərdəki fəlsəfi-psixoloji məzmunu ilə geniş əks-səda doğurmuşdur. Bu əsər, insan ruhunun daxili mübarizələri və cəmiyyətlə qarşı-qarşıya qalma motivlərini dərin fəlsəfi təhlillərlə birgə təqdim edir. Benqal inqilabçı şairi Nərzul İslamın fədakarlıqlarla dolu həyatından bəhs edən "Ruhların üsyanı" dastanı, əslində 1937-ci il repressiyasının acı nəticələrini – imperialistlərin milli qətliamını unutmayan, qan yaddaşında göyərdən şairin öz milli azadlıq, həqiqət və haqq prinsiplərinin əks-sədasıdır.

Əsər ümumilikdə giriş, "Əbədiyyat haqqında rəvayət"dən, beş fəsil (hər fəsildə iki-üç bölmə və hekayətlər) və nəticədən ibarətdir: hər bir fəsil fərqli – əbədiyyat, şair qəlbi, üsyan, fədakarlıq, əsarət, istibdad, azadlıq, şah ata və şah oğlu, zahidlik və aristokratiya, ali ruhlar kimi mövzuları, fəlsəfi-ictimai problemləri ayrı-ayrı fəsillərdə araşdırılır, lakin hamısı insan ruhunun mübarizəsi ilə birləşir. Erkin Vahidov bu fəsillər vasitəsilə fərqli hekayətlər quraraq insanın mənəvi dünyasını, öz dəyərləri və arzularına sadiq qalaraq sosial təzyiqlərə qarşı göstərdiyi müqaviməti ön plana çıxarır. Bu mövzular zaman, ideya, tale baxımından bir-birindən uzaq olsa da, müəllif onların hamısını bir məqamda öz düşüncə tərzi ilə bağlayır: tiranlığa dözməyən, azadlığı hər şeydən uca tutan üsyankar ruhu güzgümüzdə təcəssüm etdirir.

Təqdim olunan məqalədə əsərin geniş təhlil edilmişdir.

Açar sözlər:Erkin Vahidov, "Ruhların üsyanı", mənəvi azadlıq, xalq azadlığı, Benqal şairi, Nəzrul İslam, Hindistan, hikmətli hekayətlər

# SPIRITUAL-PSYCHOLOGICAL CHARACTER OF THE WORK "REBELLION OF SPIRITS" BY ERKIN VOHIDOV

**Abstract**

The creativity of Erkin Vohidov, well-known writer and poet of Uzbekistan left a deep mark and gained fame in national literature, as well as in literature of Turkic people by a variety of topics and content. His work "Rebellion of Spirits" is considered one of the important examples of Uzbek literature and became widespread due to its philosophical and psychological content in the work. This work presents the inner struggles of the human soul and the motivations to face society with deep philosophical analysis. The work "Rebellion of Spirits" based on a life full of sacrifices of Bengali revolutionary poet, Nazrul Islam, is an echo of national principles of freedom, truth and justice of the poet, who did not forget the bitter consequences of the repression of 1937 – the national massacre of the imperialists.

The work generally consists of introduction "Narrative on Eternity", five chapters (two or three sections in every chapter and stories) and conclusion: the subjects such as eternity, poet's

heart, rebellion, sacrifice, slavery, tyranny, freedom, royal father and royal son, asceticism and aristocracy, supreme spirits, as well as philosophical and social issues are studied in separate chapters, but they are all united by the struggle of the human spirit. ErkinVohidov wrote different stories through these chapters, and gave his spiritual world and resistance to social pressures prominence by adhering to his values and dreams. Even though these subjects are different from each other in terms of time, ideas and destiny, the author links them all together with his way of thinking: he embodies a rebellious spirit that does not tolerate oppression and values freedom above all else.

In the presented article the study is analyzed comprehensively.

**Keywords:** Erkin Vahidov, "Rebellion of the Souls", spiritual freedom, people's freedom, Bengali poet, Nazrul Islam, India, wise stories

## ДУХОВНО-ПСИХОЛОГИЧЕСКИЙ ХАРАКТЕР ПРОИЗВЕДЕНИЯ «ВОССТАНИЕ ДУХОВ» ЭРКИНА ВОХИДОВА

**Резюме**

Творчество известного писателя и поэта Узбекистана Эркина Вохидова оставило глубокий след и снискало известность в национальной литературе, а также в литературе тюркских народов разнообразием тем и содержания. Его произведение «Восстание духов» считается одним из важных образцов узбекской литературы и получило широкое распространение благодаря своему философскому и психологическому содержанию в произведении. В этом произведении представлены внутренние борения человеческой души и побуждения к противостоянию обществу с глубоким философским анализом. Произведение «Восстание духов», основанное на жизни, полной жертв, бенгальского революционного поэта Назрула Ислама, является отголоском национальных принципов свободы, правды и справедливости поэта, который не забыл горькие последствия репрессий 1937 года – национальную резню империалистов.

Работа в целом состоит из введения «Повествование о вечности», пяти глав (по два-три раздела в каждой главе и рассказах) и заключения: такие темы, как вечность, сердце поэта, бунт, жертвоприношение, рабство, тирания, свобода, царственный отец и царственный сын, аскетизм и аристократия, высшие духи, а также философские и социальные вопросы изучаются в отдельных главах, но все они объединены борьбой человеческого духа. Эркин Вохидов написал разные истории в этих главах и выделил свой духовный мир и сопротивление социальному давлению, придерживаясь своих ценностей и мечтаний. Несмотря на то, что эти темы отличаются друг от друга с точки зрения времени, идей и судьбы, автор связывает их все вместе своим образом мышления: он воплощает мятежный дух, который не терпит угнетения и ценит свободу превыше всего.

В представленной статье исследование анализируется всесторонне.

**Ключевые слова:** Эркин Вахидов, «Восстание душ», духовная свобода, свобода народа, бенгальский поэт, Назрул Ислам, Индия, мудрые истории.

Özbəkistanın tanınmış şairi və yazıçısı Erkin Vahidovun yaradıcılığı mövzu və məzmun, janr müxtəlifliyi ilə milli ədəbiyyatın, eləcə də türk xalqları ədəbiyyatında dərin iz buraxmış və müəllifinə böyük şöhrət qazandırmışdır. Şairin "Ruhların üsyanı" [4] poeması özbək ədəbiyyatının klassik nümunələrindən biri kimi qəbul edilir və geniş əks-səda doğurmuşdur. Bu əsər, insan ruhunun daxili mübarizələri və cəmiyyətlə qarşı-qarşıya qalma motivlərini dərin fəlsəfi təhlillərlə birgə təqdim edir. Benqal inqilabçı şairi Nərzul İslamın fədakar¬lıq¬larla dolu

həyatından bəhs edən "Ruhların üsyanı" dastanı, əslin¬də 1937-ci il repressiyasının acı nəticə¬lərini – imperialist¬lərin milli qətliamını unutmayan, qan yaddaşında göyərdən şairin öz milli mənəvi azadlıq, həqiqət və haqq üsyanının əks-sədasıdır. 1978-1979-cu illərdə qələmə alınmış, nəhayətdə 1979-cu il martın 20-də Hindistanın Dehli şəhərində yazıb bitirmişdir. Şair eposun yaranması haqqında belə yazır: "Böyük Benqal şairi Nəzrul İslamın həyatından bəhs edən bu dastanı sizə təqdim edirəm. Nəzrul İslam üsyankar şeirləri ilə bütün Hindistan yarımadasını silkələyən bir şair idi. Onun qəhrəmancasına çağırışı xalqı birliyə, dini inanclar toqquşmasından xilas olmağa, zalım müstəmləkəçiliyə qarşı mübarizəyə səsləyirdi. Şairin adı bütün Hindistanda üsyan simvoluna çevrildi. Rabindranat Taqor onun istedadını yüksək qiymətləndirərək onu ölkəsinin və zamanının ən alovlu şairi adlandırıb. Nəzrul İslam xalqının milli azadlığı üçün canını əsirgəmədi. O, şeiri ilə, sözü ilə, nəşr etdirdiyi jurnalla azadlıq uğrunda mübarizə aparıb. Amma aramsız təzyiqlər, həbslər və işgəncələr sonda öz bəhrəsini verdi. Şair hələ otuz beş yaşı olmadan, yaradıcılığının qaynadığı bir vaxtda ağlını itirmişdi. Nəzrul İslam təxminən yetmiş beş il yaşadı. Bu müddət ərzində Hindistanda çox şey dəyişdi. Qandi və Nehru kimi şəxsiyyətlərin mübarizəsi, Taqor və Nəzrul kimi şair və yazıçıların mübarizəsi, səbr dolu xalqın nifrəti müstəmləkəçiləri Hindistandan qovdu. Qırx il onu tərk edən ağlı – şüiri bir an belə qayıtmadı, Nəzrul İslam bir an belə azadlığın dadını duya bilmədi. Xalq öz şairini son ana qədər hörmətlə qarşıladı, nurlu, sakit, şüuru itmiş və ruhsuz bədənini təvaf etdi. "Ruhların üsyanı" Nazrul İslamın məhz bu faciəli taleyindən bəhs edir. Ümumiyyətlə, şeir, insanlıq, fədakarlıq haqqında..." [5, s.5-6] bir poetik hekayətdir. Poema öz üsyankar şeirləri ilə bütün Hindistanı azadlıq uğrunda mübarizəyə ruhlandıran "alovlu benqal şairinin arzularından, mərdliyindən və faciəli taleyindən bəhs etsə də, orada şair ömrünü bəhanə edərək, ümumən özbək poeziyamdan, insanlığımdan, fədakarlığımdan, insan təşnəsinin zaman və insanlarla mürəkkəb münasibətindən yazıram. yaradıcı insanlarla yanaşı, insan hə¬ya¬tının mə¬na¬sı, həyatın qəddar və ədalətli həqiqə¬ti haqqında öz fikirlərimi oxucu ilə bölüşməyə çalışdım" [1].

Yenə də sətiraltı anlamlar, yenə də öz dərdini baş¬qa¬sı¬nın dərdi kimi yazmaq... Tarix boyu ideoloji basqı¬da olan qələm əhlinin taleyi budur.

Şair, Nərzul İslamın aşağıdakı misralarını –

Tuğilqansan ozod, mudom,
Ozod bulib ol! (Nazrul İslam) [5, s.7]

– misralarını əsərinə epiqraf kimi qeyd etməsindən də anlaşılır ki, əsərdə bir şairin ya bütöv tərcümeyi-halı, ya da onun keçirdiyi psixoloji-mənəvi dünyası vərəqlənir. Əslində bu əsər ilk növbədə, insanın daxili dünyasını, onun hiss və düşüncələrinin toqquşmalarını araşdırır. Erkin Vahidov bu əsərində insan ruhunun azadlıq uğrunda mübarizəsini, mənəvi və siyasi təzyiqlər altında məhv olmamaq üçün göstərdiyi duyğularını – fəlsəfi düşüncələrini təsvir edir. Əsər həm də cəmiyyətin sərt qaydaları və fərdin şəxsi azadlığı arasındakı ziddiyyətləri diqqətə çatdırır.

Bu dünyanın
Sevinci azdır,
Dərdi-qəmi – daha çox,
Ancaq kədərdən də qaçmayın
Çarəsi çox dünyada.
Kimin könül həmdəmi varsa,
Dərdini ona söylər.
Yalqızların dərdi-kədəri
Qəlbinindərinliyinə çökər.
Sakit gecəni kim xilas etdi

Bu, şairin qəlbini əzən
İstibdadın dərdidir.
... Əbədiyyat
Cəhənnəm Atəşində yanmaq varki! [5, s.7-8]

“Ruhların üsyanı” ümumilikdə giriş, ardınca “Əbədiyyat haqqında rəvayət” [5, s.11-19]dən, beş fəsil (hər fəsildə iki-üç bölmə və hekayət) və nəticədən iba¬rətdir: I fəsildə “Şair qəlbi”, “Üsyan nəğməsi” və “Fədailik haqqında rəvayət”, II fəsildə “Üsyan” və “Cəhalət haqqında rəvayət”, III fəsildə “Əsirlikdə” və “Şah Cahan və Övranqzeb haqqında rəvayət”, IV fəsildə “Ali ruhlar haqqında nağıl”, V fəsildə “Azadlıq” və “Zahidlər və ariflər haqqında hekayət” və nəticədən ibarətdir. Fəsillərin adlarından da göründüyü kimi, hər bir problem fərqli – əbədiyyat, şair qəlbi, üsyan, fədakarlıq, əsarət, istibdad, azadlıq, şah ata və şah oğlu, zahidlik və ariflik, ali ruhlar kimi mövzuları, fəlsəfi-ictimai problemləri ayrı-ayrı fəsillərdə araşdırılır, lakin hamısı insan ruhunun mübarizəsi ilə birləşir. Erkin Vahidov bu fəsillər vasitəsilə fərqli hekayətlər quraraq insanın mənəvi dünyasını, öz dəyərləri və arzularına sadiq qalaraq sosial təzyiqlərə qarşı göstərdiyi müqaviməti ön plana çıxarır. Bu mövzular zaman, ideya, tale baxımından bir-birindən uzaq olsa da, müəllif onların hamısını bir məqamda öz düşüncə tərzi ilə bağlayır: tiranlığa dözməyən, azadlığı hər şeydən uca tutan üsyankar ruhunu təcəssüm etdirir .

Bu qəlb –
Ömrün uzun olsa – nə gözəl,
Əgər qısadırsa, – şükr et! [5, s.18]

Hekayətlərdə müxtəlif məcazlar, həmçinin şairin təsvir etdiyi hadisələr arasında simvolik əlaqələr mövcuddur. Məsələn, əsərdə xalqın mənəvi azadlıq axtarışı, psixoloji ziddiyyətlər və insanların gündəlik həyatdakı qarşılaşdığı çətinliklər kimi mövzular dərin fəlsəfi və ədəbi dillə təsvir olunub. Bu hekayətlər, həm fərdin daxili mübarizələrini, həm də cəmiyyətin sərt reallıqları ilə üzləşməsini əks etdirir.

Diqqəti cəlb edən məqamlardan biri də odur ki, hər fəsildə qoyulan problemə uyğun bir rəvayət və ya nağıl yazmaq, – Əlişir Nəvainin “Lisanut-teyr” [6, s.5-288; 2, s.330-400; 3] təsəvvüfi əsərində olduğu kimi, – şairin klassik ədəbiyyata dərin bələdçiliyindən irəli gəlir. Yeri gəlmişkən, Erkin Vahidov haqqında  xatirələrdən öyrənirik ki, şair Əlişir Nəvainin bir nəfəsə onlarla qəzəlini əzbərdən deyərmiş.

Erkin Vahidov "Ruhların üsyanı" əsərində zəngin, obrazlı və poetik bir dil istifadə edir. Onun üslubu dərin məna və simvollarla zəngindir, bu da əsərin fəlsəfi və emosional dərinliyini daha da artırır. Şairin incə obrazlar yaratmaq qabiliyyəti və dillə oynama bacarığı əsərin estetik dəyərini artırır və oxucunu düşünməyə vadar edir.

Əsərin fəlsəfi təhlili onu göstərir ki, poemada ruhun azadlıq axtarışı dərin mənaya malikdir. O, insanın varolma suallarını araşdırır: Nə üçün insan ruhu azadlıq istəyir? Azadlıq əldə etmək üçün nələri qurban vermək lazımdır? Bu suallar əsərin əsas mövzularından biridir. Erkin Vahidov ruhun azadlığını yalnız fiziki və siyasi azadlıqla məhdudlaşdırmır, həm də mənəvi azadlıq kimi qiymətləndirir. Bu mənada, “Ruhların üsyanı” həm cəmiyyətin təzyiqlərinə qarşı çıxış, həm də insanın öz mənəvi dəyərlərini tapmaq və onlara uyğun yaşamaq üçün göstərdiyi cəhddir. Əsərdə insan ruhu yalnız sosial təzyiqlərə deyil, həm də mənəvi zəifliklərə qarşı çıxır. Bu, insanın öz vicdanı və mənəvi dəyərləri ilə toqquşmasına gətirib çıxarır. Bu üsyan sadəcə cəmiyyətdən gələn xarici basqılara qarşı deyil, həm də insanın öz daxili məhdudiyyətlərinə, qorxularına və təcrübələrinə qarşı mübarizəsi kimi təqdim olunur.

“Ruhların üsyanı” poemasının qısa təsviri – “lirik mən”in poetik təqdimatı belədir:

I.“Şair qəlbi” [5, s.21-30], “Üsyan nəğməsi” [5, s.30-36] – Nəzrul İslam hind xalqının zərdabını içərdi. Nəzrul İslam qəlbini bayraq kimi qaldırdı. Üsyan atəşi son ana qədər ürəyində sönmədi. Nəzrul İslam bu dünyaya şair kimi doğuldu. Körpə qəlbi ilham adlı saf müdrikliklə yoğruldu. Onun baxışlarından Varlığa Sehrli İşıq saçılır. O, kainata heyran gözü ilə baxdı. Doğuluşdan yanan ilham şöləsinə bələndi. Zaman yeddi əsr əvvəlki kimi olsaydı, bəlkə dastanlar Xosrov Dəhləvi kimi bitərdi. Şair yarım min il əvvəl dünyaya gəlsəydi, rübailər də Mirzə Babur kimi bitərdi. Əgər neçə-neçə Zaman ötüb bu dövrlər gəlməsəydi, Bədilyana qəzəllə bitib Divan bağlardı, amma indi fürsət də fərqlidir, el dərdi də başqadır.

Üsyan haqqında söylənən bu nəğmənin ardınca fəlsəfi yüklü “Fədailik haqqında bir rəvayət” [5, s.37-43] söyləndi.

II. “Üsyan” [5, s.45-58] – Kəlküttə, 1926. Kəlküttə uğuldayırdı, izdiham başını qaldırdı. Mən şairin sözünü izah etməmişəm. O odlu nəfəsə bərabər söz tapa bilmədim. Tərcümə nədir? Əsil şeirin mənası onun qayəsindədir. Amma Od ol, Ol Sehrin kölgəsidir. Nəzrul İslam Benqalda birdən məşhurlaşdı. Hindistan bu yanan fəryadına qulaq asdı.Nəzrul İslamı tanıtma hekayətinin davamında “Cəhalət boyunca rəvayət”i [5, s.59-71] oxuyuruq.

III. “Əsirlikdə” [5, s.73-88] – adlanan bu fəsildə şairin fikirlərini qısaca yazsaq – “Ana canım, bu gün mənim səndən özgə qəlbdaşım yoxdur. Bilmirəm, niyə, Mənim zərrə qədər günahım yoxdur. Nə Allahım qarşısında, nə də vicdanım qarşısında günahkaram. Yalnız... Bir günahım varsa, o da Anamın qarşısındadır. Bağışla, ana! Şairin bir taleyi var, yəni şair ölmür.

Bu fəslin fəlsəfi və tarixi yükü “Şah Cahan və Övrəngzib (Aləmgir) haqqında” [5, s.89-108] söylənmiş bir rəvayətlə sonuclanır.

IV. “Kabuslar” [5, s.110-116] – adlı fəslində “Ali ruhlara aid nağıl”ı [5, s.117-121] oxucusuna təqdim edir: “Uşaqlıqda eşitdiyim çoxlu nağıllardan – birini xəyalımdan, ürəyimdəm çıxara bilməmişəm: ölənlərin ruhu həmişə səmada uçur. Biz onları görməsək də, onlar bizi görürlər, yaxşı iş görsək, şad olarmışlar. Yaman iş görsək, nalə edərmişlər. Dost, qohum-qardaş ruhu – adi ruh imiş. Lakin dahilərin, ululların Ruhu – Ali ruh imiş. Onlar öz dərgahlarından bizləri tapıb, çox işləri daima qəlbimizə, könlümüzə salarmışlar...” [5, s.117-121].

V. “Azadlıq” [5, s.123-128] – adlı fəslində şair yazır: “Nəzrul İslam adı Bayraq olub, El qəlbində yüksəldi. Onun zindandan yalnız cismi götürüldü. Nəzrul İslam azad oldu. El qanadına çevrildi. Ruhu gənc, narahat, canlı simasından – şairdən ayrıldı. Nəzrul İslam şeiri bütün Hindistanda səslənirdi. Ruhu isə göylərdə dolaşırdı.” Davamında isə “Zahidlər və ariflər haqqında hekayət”lə [5, s.129-133] fikrinin fəlsəfəsini açıqlayır: “Bu, rəvayətçilərin söylədiyi min illik hekayətdir. Zahidlər dedilər ki, tərkidünya səadətdir. Onlar sağ ikən ölüm şərabını daddılar. Bu dünyadan ayrılıb Gora girdilər.”

Əsərin nəticə hissəsində şairin poetik yekunu: “Nəzrul İslamın ruhu bütün dünyada gəzir. İlham anında şair könlü Yerdən Göy dağına yüksəlir. Nəzrul İslam Ruhi o zaman məndən hesab sorur. Mənə deyir ki, sən şairsən? Öz xalqına fədai olmağa hazırsanmı? Deyir ki: “Şairlik ürəkdə qandır. Mən sənə arzulamıram, oğlan. Səni arzulamıram, sağ qalana qədər oyaq qal. İlham əzab versin sənə, şeir dərdinə səbr et. Mən sənin qədərini dünya ləzzətində istəmədim. Mən öz taleyimi sənin kimi görmürəm. “Ehtiyatlı ol”. Ürək atəşiniz sönməsin". Bu fəslin fəslsəfi yükü odur ki, tarixini, ulularını, övliyalarını tanı, onları oxu, öyrən, yararlan. Dünyanın hər işıqlı yolunun açarı onların fəlsəfəsindədir” [5, s.135-141].

Erkin Vahidov "Ruhların üsyanı" əsərində zəngin, obrazlı və poetik bir dil istifadə edir. Onun üslubu dərin məna və simvollarla zəngindir, bu da əsərin fəlsəfi və emosional dərinliyini daha da artırır. Şairin incə obrazlar yaratmaq qabiliyyəti və poetik oynama bacarığı əsərin estetik dəyərini artırır və oxucunu düşünməyə vadar edir.

Benqal şairi Nazrul İslamın timsalında "Lirik mən"in azadlıq üsyanını dinlədikcə, Erkin Vahidov haqqında Azərbaycanda ilk dəfə məqalə yazan, onun şeirlərini tərcümə edən, xalq şairi Xəlil Rza Ulutürkün [7, s.368-374] –

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram!
Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!
Azadlığı istəmirəm bir həb gibi, dərman gibi
İstəyirəm Səma gibi, Günəş gibi,Cahan gibi!
Çəkil, çəkil, ey qəsbkar,
Mən bu əsrin gur səsiyəm!
Gərək deyil sısqa bulaq,
Mən ümmanlar təşnəsiyəm!!!

– haray-üsyanına dinşək kəsildim.

Nəticə: "Ruhların üsyanı" əsəri Erkin Vahidovun yaradıcılığında xüsusi yer tutan, insan ruhunun azadlıq uğrunda mübarizəsini təsvir edən dərin fəlsəfi və ədəbi əsərdir. Bu əsər, sadəcə özbək ədəbiyyatında deyil, dünya ədəbiyyatında da fərdin azadlığı, cəmiyyətlə toqquşmalar və mənəvi dəyərlərin əhəmiyyəti kimi universal mövzuları əks etdirən əsərlər arasında yerini almışdır. Erkin Vahidov bu əsəri ilə oxucularını insan ruhunun mürəkkəbliyi və gücü barədə düşünməyə vadar edir, cəmiyyət və fərd arasındakı incə tarazlığı yenidən qiymətləndirməyə dəvət edir. Əsər yazıldığı dövrdəki siyasi və ictimai şəraiti sətiraltı ifadələrlə əks etdirən, eyni zamanda insan ruhunun azadlıq və mənəvi dəyərlər uğrunda mübarizəsini təsvir edən önəmli bir əsərdir.

**Ədəbiyyat:**

1. Meliboev, Axmadjon. Erkin Voxidovun imzosi. II nashr. – Toşkent, "Adabiyot nashriyoti" MCHJ, 158 b.
2. Ülvi (Binnətova), Almaz. Əlişir Nəvai¬nin əsri və nəsri (elmi-filoloji və dini-təsəvvüf əsərləri (mono¬qra¬fi¬ya) // elmi redaktor və ön söz müəllifləri: ak.İsa Həbibbəyli və prof.Şöhrət Siracəd¬di¬nov (Özbəkistan), məsul katib Şəhla Məcidova – Bakı, "Elm və Təhsil", 2023. – 582 s.;
3. Ülvi (Binnətova), Almaz. Əlişir Nəvainin təsəvvüfi görüşləri ("Lisan ut-teyr" əsəri əsasında)" // T.C. Atatürk Universitetində keçirilən "Təsəvvüf və ədə¬biyyat" adlı beynəlxalq simpozium materialları. – Türkiyə: 26-27 oktyabr 2021.
4. Эркин Воҳидов. Сайланма. Иккинчи Жилд. Шеър дунёси. – Тошкент, «Шарқ» нашриёт-матбаа акциядорлик компанияси бош таҳририяти, 2001, 249 бет.
5. Воҳидов, Эркин. Р'уҳлар исёни: Достон. Кириш сўзи Э. Вохидовники.— Т.: Адабиёт ва санъат нашриёти, 1980, б.5-6 (144 б.) (Оташин бенгал шоири Назрул Ислом хакида) // www.ziyouz.com kutubxonasi
6. Навоий, Алишер. Лисон ут-тайр // Тўла асарлар тўпла¬ми, 10 жилдлик, 9-жилд. – Тошкент, Ğафур Ğулом ном. нашриет-матбаа ижодий уйи, 2011. – бет. 768; (5-288бет.)
7. Ulutürk, Xəlil Rza. Turan çələngi. (Türk dünyasının poetik nümunələrindən tərcümələr) // kitabında. – Bakı, 2005, 875 səh.
8. Vahidov, Erkin. Söz lətafəti // Özbəkcədən Azərbay¬can¬ca¬n dilinə uyğunlaşdıran, elmi redaktor və ön söz müəllifi: Almaz Ülvi Bin¬nə¬¬¬tova, redaktor Şəhla Məcidova. – Bakı, Elm və Təhsil, 2024, 166 s.